# Adı ürəklərə yazılan igid Təbriz...

**Qarabağımızın azadlığı uğrunda gedən 44 günlük müharibədə canı, qanı bahasına torpağını qoruyub şəhidlik zirvəsinə ucalan Vətənin igid övladlardan biri də 1994-cu ildə Lerik rayonunun Ləkər kəndində dünyaya göz açmış Təbriz Məhərrəməli oğlu Talıbovdur.**



El-obaya bağlılıq, vətənpərvərlik, xalqına fayda vermək əzmi əzəldən Talıbovların həyat kredosuna çevrilib. Buna görə də yaşadığı cəmiyyət tərəfindən ailənin hər üzvü həmişə dərin məhəbbətlə, ehtiramla qarşılanır. Belə bir saf mühitdə tərbiyə alan Təbriz müstəqil ömür yoluna başlayanda içindəki torpaq yanğısı, yurd təəssübkeşliyi ötüb keçən hər gününə ilahi bir sevgi gətirir. Nəyə əl qoyursa, hər şey gözəl alınır. Günlər bir-birindən mənalı keçsə də, erməni dığalarının Qarabağ torpaqlarına ədalətsiz təcavüzü Təbrizə çox ağır gəlir.

Bəli, öz yaşıdlarından fərqli düşünən, yaşayan, Vətənini hər şeydən üstün bilən Təbriz elə həqiqi hərbi xidmətə də düşməndən qisas almaq məqsədilə gedir. Cəbhə bölgəsində xidmətə başlayır. Odlar yurdu Azərbaycanın müdafiəsi naminə hərbi əməliyyatlarında öz fəallığı, cəsarətilə fərqlənir, Vətən qarşısında oğulluq borcunu ləyaqətlə yerinə yetirir. Və yurdunun daşını, torpağını sevməklə hər an ona qurban getməyə hazır durur, düşməndən qisas alınan gününü gözləyir.

Təbriz həqiqi xidmətdən sonra bir müddət ataanasına kömək edir. Doğma kəndinin tərəqqisinə yalnız xeyir verir, hər bir işdə mərdlik, insanpərvərlik, xeyirxahlıq nümunəsi göstərir. Qaldı ki, Qarabağın ağrı-acısına dözə bilmir, 2015-ci ildə yenidən müddətdən artıq xidmətə gedir. Çavuş rütbəsində yurdunun hər qarışına can qoyur, öz igidliyi ilə əsgərlər arasında ruh yüksəkliyi yaradır, onlarda vətənə, torpağa məhəbbət hissi aşılayır. Məqamında dığalara yerini göstərmək üçün hərbi bilik və bacarığını artırır. 2016-ci ilin Aprel döyüşlərində çoxsaylı qəhrəmanlıq nümunəsi göstərir, onun kimi igidlərin hesabına ordumuz düşmənə qalib gəlir, kiçik gizir rütbəsinə layiq görülür.

Ötən ilin sentyabrında Qarabağın azadlığı naminə Vətən müharibəsinə Təbriz birincilər sırasında qoşulur. İlk günlərdə yağı düşmənə böyük itkilər də verir. Ağdamın, Cəbrayılın, Zəngilanın azad olmasında ağır müharibə meydanından keçir, hər dəfə də qəhrəmanlığı əsgər yoldaşlarını qələbəyə doğru aparır. Döyüşdə düşmənə sarsıdıcı zərbələr vurduqca, əzəli-əbədi doğma Azərbaycan torpaqları azad olunduqca ürəyi dağa dönür, daha irəliyə can atır. Oktyabrin 23-də döyüş meydanından qaçan namərd erməni dığaları fürsətdən istifadə edib Təbrizin Vətən məhəbbətli ürəyini nişan ala bilir. Beləcə, şərəfli bir ölüm onu öz ağuşuna alır. Vətən yolunda şəhid olan Təbriz xalqın qəlbində əbədi məskən salmaqla, adını hərb tarixinin salnaməsinə qızıl hərflərlə yazır...

Təbrizin 3 yaşında Mələk, 2 yaşında Kifayət adında iki qız əmanəti böyüyür. Həyatın ən ləyaqətli vətəndaşı olmaqla onlar ömür boyu ataları ilə fəxr edəcək və onun misilsiz hünərinə verilən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medallarına baxıb qürur duyacaqlar.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı xəbər 2021.- 20-22 fevral.- S.14.